# Babəkə Bakıda heykəl qoyulmalıdır

*(Əvvəli 6-cı səhifədə)*

Həzrət Əlidən "məcusilər" (zərdüştilər) haqqında soruşulduqda o belə cavab vermişdi: "Məcusilərə toxunmayın, onlara Kitab və Peyğəmbər göndərilib".

**- Tarixi mənbələrdəki ziddiyətlərə münasibətiniz necədir?**

- Məlumdur ki, "Avesta" yunan və roma fəlsəfi məktəblərinə, mədəniyyətlərinə güclü təsir göstərən səmavi mənbədir. Zərdüştlüyün uca doktrinasının bütün Yaxın Şərqdə iudaizmə, xristianlığa və buddizmə təsiri də danılmazdır. Ərəb işğalından hələ neçə min il qabaq Azərbaycan Zərdüştlüyün mərkəzi idi. İlk müqəddəs Kitab - "Avesta" Tanrı tərəfindən bu torpağa göndərilmiş, on min ildən çox yaşı olan ən qədim tək Tanrıçılıq dininin əsas məbədləri burada tikilmiş, Zərdüştlüyün kahinləri - müqəddəs maqlar burada yaşamışdılar. Minillər boyu möhtəşəm mədəniyyət nümunələri yaradan, ilk əlifba və dilin, ədəbiyyatın, incəsənətin, memarlığın, sazın timsalında ilahi musiqinin, idman oyunlarının, meydan teatrının və kütləvi el şənliklərinin təşəkkül tapdığı Odlar Yurdunun köklü sakinləri, bəşər sivilizasiyasının mərkəzi məkanlarından olan Azərbaycanda tarix boyu unudulmaz qəhrəmanlıq nümunələri yaranıb. Belə nümunələrdən ən möhtəşəmi VIII əsrin ortalarından IX əsrin ortalarınadək dövrü əhatə edən milli-mənəvi azadlıq mübarizəsi-hürrəmilər hərəkatı idi. Zərdüşt Peyğəmbərin dinində Tanrıya dərin bağlılıq və ruhi biliklərlə kamilləşmə nəticəsində insanların təbiət qüvvələri ilə təmasda ola bildikləri haqda məlumatlar var. Bu kimi faktlar Azərbaycan ərazilərində yaşayan əcdadların heç də qədim ərəb-fars mənbələrində qələmə verildiyi kimi dinsiz, inancsız, biliksiz toplum deyil, əksinə, Tanrıya yaxın, hətta ilahi qüvvələr tərəfindən himayə edilən soydan olduqlarını göstərir.

Akademik Ziya Bünyadov ərəb mənbələrinə əsaslanaraq yazırdı: "Babək... Tanrının insan surətində təcəssüm etməsi, ruhun bir bədəndən başqa bədənə köçməsi inancını elan edib, inandırırdı ki, qeyb olan müqəddəs ruh çox sonralar qayıdacaqdır." Onlar "Uca Şirvinin Ruhu, Səni Gözləyirik!" dedikdə məhz bu inama (müasir anlayışda - "reinkarnasiya" - A.) əsaslanırdılar.

"Onlar ruhların bədəndən-bədənə köçməyinə inanırdılar" (Əbu Məhəmməd Abdullah ibn Əsəd Yafeyi). Məhz ruhun əbədiliyi, ölməzliyi haqda ilahi bilik Babəki və onun ətrafındakıları mənfur düşmən qarşısında əyilməz etmişdi. Onlar ölümün ancaq cismə, bədənə aid olduğuna, ruhun isə əbədi yaşayacağına əmin idilər. Babəki ən dəhşətli, qeyri-insani işgəncələr qarşısında əyilməz və qorxmaz edən də, məhz bu inam idi...

**- Həqiqətən də Azərbaycan türklərinin qədimdən sülhsevər və humanist olduğunu hətta, ərəb tarixçiləri də etiraf ediblər. Amma...**

- Tamamilə doğrudur. Məsələn, İbn ən-Nədim yazırdı: "Hürrəmilərin dini etiqadında qətl, əzab və savaş yox idi, onlar bütün bunların nə olduğunu bilmirdilər". Hürrəmilər hərəkatı Azərbaycan xalqının milli-mənəvi, tarixi-mədəni kökləri üzərində formalaşan möhtəşəm milli qəhrəmanlıq tarixidir.

"Babəklə bağlı mənbələrin də əksəriyyəti ərəb-fars tarixçilərinin yazdıqlarından ibarətdir. Bu mənbələrdə qərəz, saxtalaşdırma əlamətləri açıq-aydın hiss olunur".

Bu qəhrəmanlıq tarixinin 22 ili - Babəkin adı ilə bağlıdır. Burada qeyd edək ki, hürrəmilər hərəkatı dövrü tarix elmi üçün bəzən qaranlıq məqamlarla dolu sirr pərdəsi altındadır. Səbəbi isə dediyimiz kimi, çox sadədir: Türklər tarixi yaradıblar, ancaq tarixi onlar yazmayıblar! Tariximizi əksər hallarda dörd bir ətrafımızda dolaşan düşmənlərimiz yazıblar. Bu tarixi onlar təbii ki, təhrif edərək, saxtalaşdıraraq qələmə alıblar ki, xalqı öz keçmişindən, köklü mədəniyyətindən ayrı salıb simasızlaşdırsınlar. Babəklə bağlı mənbələrin də əksəriyyəti ərəb-fars tarixçilərinin yazdıqlarından ibarətdir. Bu mənbələrdə qərəz, saxtalaşdırma əlamətləri açıq-aydın hiss olunur. Böyük ideallarla yaşayan xürrəmilər - azadlıq uğrunda mübarizə aparırdılar. İslam pərdəsi altında onların yurdunu işğal edən qəsbkarlara qarşı amansız və barışmaz mövqedə idilər. Hürrəmilərin inanclarına görə ulu Cavidanın ruhu gənc Babəkdə zühur etmişdir. Onlar Tanrını ali və əbədi mövcud qüvvə kimi qəbul edir, Tanrıya sitayiş edir, onun yerdəki əlamətlərinə inanırdılar. Bununla belə başqa dinləri rədd etmir, təhqirinə yol vermirdilər. Şirvinlik inancına uyğun olaraq hürrəmilər arasında ayrı-seçkilik yox idi, qadın-kişi bərabərliyi mövcud idi, ailənin mirası qızla oğlan övladı arasında tən paylaşırdı. Bütün bunlar isə ərəblərin gətirdiyi yeni dinin şərtlərinə uyğun gəlmirdi.

**- Ümumiyyətlə, tarixdə ərəblərə və İslama qarşı mübarizəni Babəkin adı ilə bağlama cəhdi var. Bu nə dərəcədə real həqiqətdir?**

- Ərəblərə və İslama qarşı mübarizəni təkcə Babəkin adı ilə bağlamaq düzgün deyildir və hələ Babəkdən 70 il öncə - 748-ci ildə Azərbaycan əhalisi Ərəb işğalına və zorla islamlaşdırma siyasətinə qarşı mübarizəyə qalxmışdı. Babəkin vəhşicəsinə edam olunmasından və bütöv Azərbaycan ölkəsinin işğal edilməsindən keçən on illər müddətində də ölkənin şimal-cənub bölgələrində, xüsusən, Albaniyada, Aranda və digər yerlərdə yadelli işğala qarşı etirazlar səngiməк bilmirdi. Babəkdən öncə, 808-ci ildə daha da vüsət alan milli azadlıq hərəkatına igid sərkərdə Cavidan başçılıq edirdi. IX əsrin əvvəllərində Azərbaycan əraziləri bu mübarizənin mərkəzinə, Bəzz qalası isə hürrəmilərin paytaxtına çevrilmişdi.

"Hürrəmi hərəkatı Azərbaycanı işğaldan qorumaq uğrunda 100 ilə yaxın mübarizə apardı"

Belə bir mürəkkəb tarixi şəraitdə Azərbaycanın Azadlıq məkanında böyük sərkərdə, qüdrətli dövlət başçısı, xalqı arxasınca qələbədən-qələbəyə aparan yenilməz bir rəhbərin - Babək Hürrəminin parlaq vücudu yalçın qayalar üzərindən vüqarla ucalırdı. Hürrəmi hərəkatı Azərbaycanı işğaldan qorumaq uğrunda 100 ilə yaxın mübarizə apardı. Bu müddətdə Xilafətin Azərbaycanda 6 böyük ordusu darmadağın edildi, ərəb işğalçıları bir milyonadək döyüşçü itirdilər. Elə bu qədər də şəhid verən Azərbaycanın türk-oğuz igidləri vətən uğrunda qəhrəmanlıqla döyüşdülər. Babəkin dövründə isə Hürrəmi hərəkatı Azərbaycanın bütün tarixi ərazilərini əhatə etmişdi. 500 mindən çox işğalçını məhv etmiş, xilafətin ən məşhur sərkərdələrinə qalib gəlmiş, qəddar xəlifələrin yuxusunu qaçırmış məğlubedilməz Azərbaycan Oğlu heç də düşmənlərin və düşmənə yarınanların qələmə verdiyi kimi, miskin bir qiyamçı gədə deyildi. O, qüdrətli sərkərdə idi, güclü hökmdar idi, xalqı müstəqillik naminə arxasınca irəli aparan müdrik öndər idi. Onun yaratdığı dövlət qurumunun özünə məxsus ideoloji istiqamətləri, od, alov, günəş, işıq rəmzi olan qıpqırmızı bayrağı vardı. Babəkin böyük bir ərazidə qurduğu bu dövlətin güclü nizami ordusu, bacarıqlı sərkərdələri var idi. Döyüş taktikası hərbi şuranın toplantılarında hamılıqla hazırlanır və ciddi şəkildə həyata keçirilirdi.

**- Ümumiyyətlə, Babəkin Avropa dövlətləri ilə bağlılığı necə olub?**

- Babəkin sarayı ilə Qərb dövlətləri arasında da sıx əlaqələr var idi. Babək Bizans imperatoru Feofilə göndərdiyi məktubunda bütün Ərəb ordusunun, hətta Xəlifənin dərzisinin və aşbazının da onunla döyüşə göndərildiyini bildirirdi. Bu isə o demək idi ki, Babəkin işğalçılara qarşı mübarizəsi o dərəcədə qüdrətlənib genişlənmişdi ki, nəhəng Xilafət bütün digər istiqamətlərdə hərbi münaqişəni saxlayıb təkcə Babəkin üstünə yeriməк məcburiyyətində qalmışdı. Təsadüfi deyil ki, hirshikkəsindən Babəki tarixdə misli görünməmiş vəhşiliklə edam edib parça-parça doğratdıran əzazil Xəlifə Mötəsim Babəkin şaqqalandığını görüb dərindən nəfəs almış: " Şükr, - demişdi, -Xilafət xilas oldu! İslam qurtuldu! Bağdad əhlinə bayramlıq paylayın! İndi Azərbaycan da bizimdir... Bütün dünya da!"

Müsəlman salnaməçiləri Hürrəmilər haqqında onlara qarşı qəzəb oyadan hər cür böhtan və iftira yazıblar. Bu saxtakar tarixçilər yazıblar ki, guya hürrəmilər bütün vaxtlarını şən musiqi altında yeyib-içməklə, gülüb-oynamaqla keçirirmişlər. Əbu Müzəffər İsfəraini yazır: "...hər iki cinsdən olan babəkilər ildə bir gecə o dağda musiqi və mey məclisinə toplaşıb, pozğun işlər görərdilər." Əslində isə, bu ərəb "tarixçi"sinin dediyi gecə, haqqında yəqin ki, heç bir məlumatı olmadığı Novruz gecəsidir ki, xalqımız hər il ellikcə Tanrıya həsr olunan müqəddəs bayramını bugünə kimi keçirir. Bu iftira ilə bağlı görkəmli tarixçi, akademik Ziya Bünyadov çox tutarlı məntiqlə cavab verir: "İyirmi ildən artıq xilafətə qarşı kəskin və cəsur azadlıq mübarizəsi aparmış bir xalqı şən və qayğısız ömür sürən başıpozuq kütlə kimi qələmə verməк mümkün deyil." Onu da deyim ki, ta qədimdən möhtəşəm mədəniyyətə, geniş elmi-fəlsəfi dünyagörüşə, möhkəm dini-əxlaqi prinsiplərə malik olan, bəşəriyyətin ilk təktanrıçılıq dinini yaşadan bir xalqı və onun qəhrəmanını bu cür aşağılayıcı tərzdə təqdim etmək ancaq qərəzli "tarixçilərin" xəstə təxəyyülünün məhsulu ola bilər. Ümumiyyətlə, dövrün hadisələri haqda bizə gəlib çatan məlumatların böyük əksəriyyəti ərəb tarixçilərinə məxsusdur. Bu tarixçilər isə, təkrar edirəm, Xəlifənin sarayında oturub düşmən haqqında həqiqəti yaza bilməzdilər.

**- Tarixdə niyə ərəblər Azərbaycanı daim işğal etmək fikrində olub?**

- Həqiqət o idi ki, Azərbaycanın artıq möhtəşəm bir müqavimət qüvvəsinə çevrildiyini görən Xəlifə ibn Məmun əvvəllər əhəmiyyət vermədikləri Azərbaycana nizami ordu göndərdi. Sonralar bütün hərbi strategiyasını Azərbaycanı işğal etmək hikkəsi üzərində quran xəlifə Məmun dəfələrlə özünün ən say-seçmə döyüşçülərini hücuma göndərdi və hər dəfə onun sərkərdələri məğlub oldular. "...Çünki azərbaycanlılar çox böyük mərdliklə, qorxmadan və sonadək döyüşürdülər"

Babək yenilməz bir qüdrət kimi Ərəb işğalının qarşısını kəsmişdi. Təbəri yazır: "...Babəkin ordusu ilə vuruşda Ərəb ordusu pərən-pərən düşüb qaçdığı zaman əsgərlərdən biri arxasına baxmadan qaçan İsaqdan soruşur:

-Ey Əbu Musa, hara belə?

O isə cavab verir:

-Biz onlarla vuruşa bilmərik, biz ancaq müsəlmanları qorxutmağa qadirik..."

...Çünki Azərbaycanlılar çox böyük mərdliklə, qorxmadan və sonadək döyüşürdülər. Bu bir faktdır ki, Azərbaycan xalqının böyüklüyünü yaxşı anlamayan, Babəkin gücünü düzgün qiymətləndirməyən ərəb sərkərdələri dalbadal rüsvayçı məğlubiyyətlərə uğrayırdı. Hürrəmi hərəkatı Fars, Xorasan, İsfahan və Kuhistan vilayətlərini bürümüşdü. Hündür qalalarda odun-alovun, günəşin rəmzi olan al bayraqlar dalğalanırdı. Ərəblərə qədərki qayda-qanunlar və milli adət-ənənələr bərpa edilirdi. Cahil müsəlman ərəblərini ən çox heyrətləndirən hallar baş verirdi: Azərbaycanda kişilərlə bərabər hüquq sahibi kimi üzləri açıq gəzən, hərəmxanalarda gizlənməyən Azərbaycanlı qız-gəlinlər nəinki öz istəklərinə görə ərə gedə bilir, hətta ölkənin ictimai həyatında da fəal iştirak edirdilər. Babəkin göstərişi ilə təxminən bir milyon kv.km.-lik əraziyə malik Azərbaycan diyarının şəhər və kəndlərində əmin-amanlıq bərqərar olunurdu. Azərbaycanda bir çox millətlər və etnoslar sərbəst yaşayır, müxtəlif dinlərə inananlar arasında heç bir ayrı-seçkilik qoyulmurdu. Hürrəmilər elliklə yığışıb şənlik edir, mahnı oxuyur, atəşgahlarda Tanrıya ibadət mərasimləri keçirirdilər...

**- Bəs Babək niyə məğlubiyyətə uğradı? Buna səbəb nə idi?**

- Nəhayət, 22 il böyük bir imperiya ilə aramsız vuruşan Babək, adətən olduğu kimi, satılmışlar, xəyanətkarlar və casuslar sayəsində məğlubiyyətə uğradıldı. "Azərbaycandan Ərmənə gedən" dərədə ov edərkən Sünik knyazı erməni Səhl Sumbatın 1 milyon dirhəm müqabilində onu hiyləgər Afşinə satdığını biləndə Babək Səhl Sumbata üzünü tutub demişdi: "Xain, öz ağanı çox ucuz satdın, pul istəyirdinsə, mən sənə bundan on dəfə artığını verərdim..." Babək əsir düşəndən sonar Xəlifədən gələn aman kağızını Babəkə təqdim edəndə, ərəblərə qulluq göstərən türk Afşinə Azərbaycan oğlu Babəkin cavabı bu olmuşdu: "Sənin xəlifən məni heç bir şey müqabilində satın ala bilməz, çünki şərəfli ölüm xalqına və vətəninə xəyanət bahasına əldə edilən miskin həyatdan min dəfə yaxşıdır."

Edam üçün Xilafətin paytaxtı Samirə şəhərinə aparılmazdan öncə isə Babəkin sərkərdə Afşindən yalnız iki xahişi olmuşdu. Birincisi, Bəzz şəhərinin xarabalıqlarının vidalaşmaq üçün son dəfə ona göstərilməsini, ikincisi, xidmət üçün ona təhkim edilmiş adamın üstündən ət iyi gəldiyinə görə dəyişdirilməsini istəmişdi...

**- Babəkin edamı necə olub? Tarixdə bilgi necədir?**

- 838-ci il martın 14-ü günü Babəkə şahlara layiq libas geyindirib nəhəng boz filin belində edam yerinə apardılar. Ərəb Xilafətinin paytaxtında, Xəlifənin hüzurunda, ali ruhani şəxslərin və mömin müsəlmanların gözü qarşısında günahı yalnız öz vətənini azad görmək olan Azərbaycan qəhrəmanı Babəki dinə, imana, nə də insanlığa yaraşmayan vəhşi bir üsulla qətlə yetirdilər. Şaqqalamaq əmri alan cəlladlar əvvəlcə onun sağ əlini kəsəndə Babək qolunun qanı ilə üzünü qana boyadı. Bunu görən Xəlifə Mötəsim: "Ondan soruşun nə səbəbə belə etdi?"- deyir. Babəkdən soruşurlar, o belə cavab verir: "...Nə qədər ki, başım kəsilməmişdir, bu qan axacaqdır. Mən qorxuram bütün qanım axıb qurtarsın və üzümün rəngi qaçıb solğunlaşsın, adamlar elə düşünsün ki, guya mən ölümdən qorxuram. Mən üzümü qana boyadım ki, üzümün rəngi qaçmış kimi görünməsin". Cəlladlar Babəkin sol qolunu, sonra hər iki qıçını kəsdilər. Babəkin bədəni bütün qan içində olsa da, o səsini çıxartmırdı. Edama toplaşanlar insane iradəsinin bu dərəcədə yenilməzliyinə heyrət edirdilər. Axırda Babəkin başını vurdular... Və yalnız bundan sonra Mötəsimin məşhur ifadəsi səsləndi: "Şükr, Xilafət xilas oldu!" Salnaməçilər isə belə yazdılar: "Babək öz zəmanəsinin qəhrəmanı və Xilafəti dəhşətə gətirən bir igid idi". "Babəkin üzərində çalınan qələbə İslam dövlətində ən böyük qələbə idi, onun əsir alındığı gün isə müsəlmanların bayram günü idi"".

**- Həqiqətən də görünür ki, Babəkin rəhbərliyi ilə hürrəmilərin mübarizəsi Azərbaycan tarixində ən parlaq səhifələrdən biridir...**

- Bəli, bu mübarizədə düşmən qalib gəlsə də, xalqın şüurunda dərin iz buraxdı. Babəkin ardıcılları sonrakı yüz il ərzində Xilafətdə baş verən bütün yeni etirazların özəyi oldular. Adı xalqımızın qəhrəmanlıq Kitabına qızıl hərflərlə yazılan Babəkin xatirəsi əbədi olaraq bu xalqın qəlbində yaşayacaqdır. Ancaq bu gün "araşdırmaçı-tarixçi" E.Nəsirovun müdrikanə pozda guya xalqın öz milli qəhrəmanlarının şücaət və rəşadətini mütləq dastanlaşdırdığı barədə düstur irəli sürüb "Dədə Qorqud" dastanındakı qəhrəmanları, "Koroğlu" dastanını yada salması, Babək haqqında isə belə daşdankeçən dastan faktının olmadığını fəxrlə söyləməsi heç bir tənqidə dözməyən gülünc postulatlardır. Ona görə yox ki, alimin bu fikri səhvdir, ona görə ki, xalq alimdən daha ağıllıdır: o, "Dədə Qorqud", "Koroğlu" kimi dastanların bədii personajlarından fərqli olaraq Babəkin - mifik obraz deyil, tarixi şəxsiyyət olduğunu bilir. Və konkret bioqrafiyası, real həyat yolu, aləmdə məşhur mübarizəsi olan qəhrəman oğlunun sənədlərdə əksini tapan real ömür yolunu nağıla, dastana çevirməyin yersizliyini dərk edir.

*(Davamı 10-cu səhifədə)*

*(Əvvəli 7-ci səhifədə)*

Daha bir ilginc məqam. "Yaxın Şərq ölkələri üzrə tanınmış araşdırmaçı, tarixçi" müsahibəsində cidd-cəhdlə "İslamı Babəkdən qorumaq" kimi bihudə missiyanı üzərinə götürüb Don-Kixot sayağı fərziyyələr söyləməsi - ha səy etsə də səsi ucalaşmayacaq yağlı bir xoruzun quyruğunu göstərən məqamlardandır. Məşhur ayı və dovşan anekdotuna bənzər olaraq "...dostuma əl vuranı cıraram ha!..." - deyə sinəsini qabağa verməsi isə bu "xoruzun" məhz Yaxın Şərqin hansı ideoloji və coğrafi səmtində yağlandığını aydın göstərir. Xüsusən "xristian Bizansın İslam dünyası içində məhz xürrəmilərin simasında özünə müttəfiq tapması" barədə dediyi müasir provokasion fikir bu ideoloji-coğrafi cəhəti tam bəlli edir.

**- Müəllifin Babəkin haqqında olan bilgilərin sadəcə, təbliğat xarakterli olub bizə ötürülməsi məsələsinə münasibətiniz də birmənalı deyil...**

- Həqiqətən də "araşdırmaçı-tarixçinin" dediyi Babəkin guya bizə rus-Sovet imperiyası tərəfdən "əvəzsiz propaqanda materialı" kimi sırınması barədə mülahizələrə, burada adam bir qədər ağını çıxarıb. Ruslar demişkən, "slışal zvon, no ne znaet qde on!" Yəni bu motivdə sayaq nələrsə oxuyub, eşidib, amma mahiyyətinə vara bilməyib. Şəxsən mənim də bir neçə məqaləmdə imperiya kanselyariləri tərəfindən zaman-zaman xalqımızın itaətdə saxlanması məqsədilə xüsusi "reseptlərin" hazırladığı barədə mülahizələr olub... Ancaq indi bu hənə o hənədən deyil. Babək rus imperiyasının yox, başqa bir imperiyanın diqqət və marağı çərçivəsində olan arzuedilməz şəxsdir. Və məhz Azəri türklərini əbədi əsarətdə saxlamasına çox mane olan rəmzi obyekt kimi onun aradan qaldırılmasına çalışır. Düşünürəm, əksinə, Rus imperiyası (bu nə qədər təzadlı görünsə də!) vaxtilə apardığı amansız bölgüdə bizləri həmin anti-Babək amallı şovinistlərin cəngindən qurtarıb, mədəni dünya ilə təmasa, sivilizasiya ilə qaynayıb-qarışmağa imkan verib... Təbii, bu bir ayrı mövzudur.

**- Doğrudanmı Babəkə Bakıda heykəl qoyulsa "dünya dağılar"?**

- Hansısa mübhəm niyyətlərə görə Babəki bu qədər aşağılayıb öz səviyyəsində araşdıran müsahibin maraqlı açıqlamalarından biri də odur ki, sən demə, "Azərbaycan tarixində Babəkdən qat-qat mühüm rol oynamış, həqiqətən dahi adlandıra biləcəyimiz insanlar varmış ki, adlarını heç olmasa bir küçəyə belə qoymayıblar!" Açığı,

# Babəkə Bakıda heykəl qoyulmalıdır

şəxsən mən çox maraqla izlədim görüm, Babəki eyni bir səviyyəyə qoyub müqayisə etmək belə mümkün olmayan o böyük qəhrəmanımız kimdir ki, bəlkə gələcəkdə hansısa boş küçə tapıb adını ora qoymaq üçün təklif irəli sürüm? Öyrəndim ki, sən demə Azərbaycan xalqının indiyədək tanımadığı bu adam - "Ərməniyyə fatehi Yusif ibn Əbu's-Sac imiş"! Bəli, Yusif ibn Əbu's-Sac! Etiraf edim ki, Tarixi-Nadiri yarıyacan oxusam da, "Azərbaycan üçün tarixdə Babəkdən qat-qat mühüm rol oynamış həqiqi dahi Yusif ibn Əbu's-Sac" adına nəinki hansısa küçədə, heç SSRİ tarixi dəsliyində də rast gəlməmişəm. Odur ki, bu "Yusif ibn Əbu's-Sac" məsələsi heç!

"Milyonlarla qeyrətli Azərbaycan vətəndaşı Prezident İlham Əliyevin Bakıda böyük sərkərdə Babəkin abidəsinin ucaldılması barədə Sərəncamını birmənalı olaraq razılıqla qarşılayıb"

Nəhayət, "məşhur araşdırmaçı-tarixçinin" ultimativ tonda bəyanladığı başqa cəfəng bir fikrə rəğmən, milyonlarla qeyrətli Azərbaycan vətəndaşı Prezident İlham Əliyevin Bakıda böyük vətənpər sərkərdə Babəkin abidəsinin ucaldılması barədə Sərəncamını birmənalı olaraq razılıqla qarşılayıb. Və yadelli işğala qarşı mübarizə simvolu olacaq bu abidənin paytaxtımızın ən uca nöqtələrindən birində ucaldılacağı günü xalq səbrsizliklə gözləyir! Çünki kimin nə deməsindən asılı olmayaraq, xalqın gen yaddaşından Babək fenomeninin izlərini silmək mümkün deyil. Bu gün Naxçıvan Muxtar Respublikasının rayonlarından biri Babəkin adını daşıyır. Babəkin şərəfinə Naxçıvan şəhərində, Babək rayonunda və Xaçmaz şəhərində abidələr ucaldılıb.

Onun adına Bakı və Gəncə şəhərlərində prospektlər var. Babək haqqında elmi əsərlər, monoqrafiyalar, pomanlar, poemalar yazılıb, film çəkilib. Xalqının, Vətəninin, Dövlətinin inkişafını istəyən bütün dünya Azərbaycanlıları bu ulu qəhrəmanın varlığı ilə fəxr edir. Və nəhayət, hər il Babəkin doğum günü kimi qeyd edilən 26 iyun tarixində Cənubda yaşayan milyonlarla soydaşlarımız - Azərbaycan türkləri bütün təzyiqlərə və təqiblərə baxmayaraq Babəkin əziz xatirəsini ehtiram və sevgi ilə yad edərək Bəzz Qalasına yürüş keçirirlər... Azərbaycan Prezidentinin Sərəncamı ilə Bakıda ucaldılacaq Babəkin abidəsi də məhz 50 milyonluq dünya Azərbaycanlıları üçün çox qiymətli birlik, bütövlük timsalı olaraq ucaldılacaqdır!

- Müsahibəyə və Babək haqqında geniş gerçək bilgiyə görə minnətdarıq.

*A.MƏMMƏDLİ*
*Təzadlar,*
*14 avqust 2012.*